# Milli iradəmizin nümayişi

Xarici işlər naziri Ceyhun Bayramov Ermənistanın qeyri-qanuni fəaliyyəti ilə əlaqədar Laçın yolu ətrafında yaranmış vəziyyətlə bağlı BMT Baş katibinə məktub ünvanlayıb. Məktubda azərbaycanlı fəalların Rusiya sülhməramlı kontingentin müvəqqəti məsuliyyət zonasındakı etirazlarının Ermənistan tərəfindən "humanitar böhran" kimi qələmə verilməsinə, onların hadisələri siyasiləşdirmək cəhdlərinə diqqət çəkilib, Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı ilə bağlı ətraflı məlumat təqdim edilib.





Bildirilib ki, aksiya iştirakçıları Laçın yolu ilə avtomobillərin hərəkətinə heç bir məhdudiyyət qoymur, əksinə, mülki nəqliyyat vasitələrinin, xüsusən də təcili yardım maşınlarının hərəkətini asanlaşdırmağa hazırdırlar. Həmçinin Azərbaycan tərəfinin yerli erməni sakinlərlə dialoqun təşviqi istiqamətində atılan addımlar barədə də məktubda qeyd olunub. Ermənilər ekosidə son verənə, suveren ərazilərimizdə yerləşən faydalı qazıntı yataqlarında azərbaycanlı mütəxəssislərin monitorinqinə şərait yaradılana qədər aksiya davam edəcək.

Ermənistan isə Laçın yolunda azərbaycanlıların etirazını dayandırmaq üçün haqlı tələblərimizin təmin olunmasına çalışmaq əvəzinə, riyakarlığını davam etdirir. Onlar Xankəndidə saxta mitinq təşkil etməklə azərbaycanlı fəalların etiraz aksiyasını dayandırmağa çalışır.

## Laçın yolundan silahlanma kommunikasiyası kimi istifadə yolverilməzdir

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, Laçın-Xankəndi yolunda dekabrın 12-dən bəri keçirilən dinc aksiya suveren haqlarımızın qorunması tədbiridir: "Aksiyanın məqsədi sərvətlərimizin talanmasının qarşısının alınması, ekoloji fəlakətin sonlandırılmasıdır. Bu, artıq 30 ildir ki, Qarabağ və ətraf əraziləri sümürən qüvvələrin separatizmi müxtəlif saxta vasitələrlə ayaqda saxlamaq cəhdlərinə qarşı dirənişimizdir. On səkkiz gündür ki, davam edən bu aksiyanı həm də milli hüquqlarımızın müdafiəsi hadisəsi də adlandırmaq olar. Bu gün aksiyada silahsız olsa da, xüsusi təyinatlılar qədər böyük milli iradəni ortaya qoymağı bacaran xalqımızın nümayəndələri sanki rəşadətli əsgər və zabitlərimizin missiyasını yerinə yetirirlər. Onlar havanın soyuq olmasına baxmayaraq, günlərdir ki, Vətən, torpaq, bütövlük uğrunda mübarizə aparırlar. Bu günlərdə aksiyada iştirak edən minlərlə fəal dünya azərbaycanlılarının sadəcə bir parçasıdır".

Komitə sədri deyib ki, Ermənistan müxtəlif beynəlxalq təşkilatlardan Azərbaycan əleyhinə humanitar, siyasi, iqtisadi, hətta bir sıra hallarda hərbi sanksiyalar qazanmağa çalışır: "Ermənilərin bu cür riyakarlıqlarının qarşısını almaq üçün isə dövlətimiz tərəfindən müxtəlif tədbirlər həyata keçirilir. Onlar yenə saxta informasiyalar yayır, Laçın yolundakı vəziyyəti özlərinə sərf edən formada təqdim edirlər. Azərbaycanı Laçın yolunu bağlamaqda ittiham edir, dünya ictimaiyyətini aldadırlar. Qəribədir ki, cəmi iki həftəlik dinc aksiya nəticəsində Xankəndidəki mağazaların piştaxtaları boş qalıb, yəni ermənilər belə təqdim edirlər. Deməli, orada yaşayan hər bir erməniyə aydın olub ki, biz silahlardan istifadə etməsək belə, təşkil etdiyimiz sadə dinc aksiya hesabına belə onların vəziyyəti çətinləşə bilir. Bəs Ermənistan dövləti problemlərə alternativ həllər tapmaq əvəzinə, nə vaxta qədər, ekologiyanın və maliyyə sisteminin çirkləndirilməsi ilə məşğul olacaq?!"

Zahid Orucun sözlərinə görə, Azərbaycan beynəlxalq platformalarda aktiv mövqeyini ifadə edir: "Şübhə yeri yoxdur ki, Qarabağın hər bir qarışının gələcəyi yalnız Azərbaycanla bağlıdır. Ona görə də Laçın yolundakı aksiyamızı əsassız iddialarla dayandırmağa çalışmaq fayda verməyəcək. Xarici işlər naziri Ceyhun Bayramovun BMT Baş katibinə Laçın yolundakı vəziyyətlə əlaqədar məktubu Azərbaycan əleyhinə bədnam qətnamələr qəbul etməkdə maraqlı olan, xüsusilə də Fransanın timsalında bunu təşviq edən və tirajlayan qüvvələrə qarşı bizim milli iradəmizi göstərmək məqsədi daşıyır. Beynəlxalq ictimaiyyət ermənilərin yalan təbliğatlarına uymamalıdır. Laçın yolundan dinc ermənilər, eləcə də humanitar məqsədli avtomobillər rahatlıqla keçə bilərlər, lakin bu yoldan əsla silahlanma kommunikasiyası kimi istifadə edilməməlidir. Bu, yolverilməzdir. Ona görə də Laçın-Xankəndi yolundakı aksiya legitimdir və beynəlxalq ədalət prinsiplərinə tamamilə uyğundur".

## Səbir artıq tükənib

Milli Məclisin deputatı Razi Nurullayev qeyd edib ki, Ermənistanın Laçın yolundan riyakar məqsədlər üçün sui-istifadə etməsi yolverilməzdir: "Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri də buna görə etiraz bildirir, ekosidin dayandırılmasını tələb edirlər. Azərbaycan dövləti də etirazçılara dəstəyini nümayiş etdirir. Ermənistan artıq iki ildən çoxdur ki, Laçın yolundan bir dəfə də olsun humanitar məqsədlərlə istifadə etməyib. Ermənistan Vətən müharibəsindən sonra, 2021-ci ildə istehsal etdiyi minaları da bizim ərazilərimizdə basdırıb. Yeni faktlar ortadadır, ona görə də Azərbaycan dövlətinin və xalqımızın vətəndaş səbri artıq tükənib. Belə olan halda, azərbaycanlı fəalların ermənilərin bu özbaşınalığına etiraz bildirməsi olduqca təbiidir. Ermənistan hökuməti, onların separatçı dəstələri bizim Qarabağdakı təbii ehtiyatlarımızı talayır, meşələrimizi qırır, sularımızı çirkləndirirlər. Əlbəttə ki, biz bununla razılaşa bilmərik".

Deputat, həmçinin vurğulayıb ki, Ermənistanın siyasi rəhbərliyi də, onların quldur dəstələri də nə danışığa gedir, nə də monitorinq üçün şərait yaradırlar: "Ona görə də aksiya iştirakçılarının tələbləri artıq xarakterini dəyişir və siyasiləşməyə başlayır. Bunu anlamaq çətin deyil. Nəzərə almaq lazımdır ki, Azərbaycan dövləti Ermənistana Qarabağda yaşayan ermənilərlə əlaqə yaratmaq üçün Laçın yolundan istifadəyə icazə verdiyi halda, Ermənistan Zəngəzur dəhlizinin açılmaması üçün əlindən gələni edir. O zaman Azərbaycanın Laçın yolunun Ermənistanla sərhəd hissəsinə öz sərhəd xidmətini və gömrük postunu yerləşdirməyə haqqı çatır. İndi də Ruben Vardanyanın "tələbə"ləri Laçın yolu boyunca yürüş keçirir və deyirlər ki, guya Azərbaycan 10 noyabr razılaşmasına əməl etmir. Ermənistan razılaşmadan sonra da silahlı birləşmələrini, quldur dəstələrini Azərbaycanın suveren ərazilərindən çıxarmayıb, Zəngəzur dəhlizini açmamaqla bəyanatın iki ən vacib bəndini pozub, amma bizi günahlandırır".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2022.- 29 dekabr.- S.14.